# «Pomidor emalı müəssisələrinin yaradılması» layihəsi üzrə daxili bazar araşdırması



## YEKUN HESABAT


KOB
Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

S|S
SAGE SOLUTIONS
if quality matters

# Mündəricat

1.0. Giriş
2.0. Araşdırmanın metodologiyası
3.0. Bazarın mövcud durumu
    3.1. Rəsmi statistika
    3.2. Bazar çeşid və qiymət təklifləri
    3.3. İstehlakçıların sorğusu
    3.4. Mövcud istehsalat
4.0. Pomidor emalına dəstək amillər
5.0. Pomidor emalı təşəbbüsünün SWOT təhlili
6.0. Dövlət dəstəyi proqramları
7.0. İnkişaf perspektivləri
8.0. Nəticələrin qısa xülasəsi



# 1.0. Giriş

Təqdim olunan hesabat Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin sifarişi və maliyyə dəstəyi ilə Sage Solutions MMC konsaltinq şirkəti tərəfindən hazırlanmışdır. Pomidor emalı müəssisələrinin təşkil edilməsi layihəsi üzrə aparılmış daxili bazar araşdırmasının əsas hədəfləri aşağıdakı amilləri əhatə edir:

- Pomidor istehsalı, emalı və ticarəti bazarının mövcud durumunun öyrənilməsi və təhlili;
- Bazar iştirakçılarının və istehlakçılarının rəylərinin öyrənilməsi;
- Beynəlxalq təcrübənin təhlilli və sərmayə perspektivlərinin araşdırılması;
- Yeni emal müəssisələrinin təşkili perspektivlərinin təhlili.



# 2.0. Araşdırmanın Metodologiyası

Bu hesabatla nəticələnən araşdırma, müxtəlif metodologiyaların tətbiqi vasitəsilə icra olunmuşdur.

Sözügedən metodologiyaların siyahisi aşağıda təqdim olunmuşdur:

- rəsmi statistik hesabatların toplanılması;
- pomidor sənayesi və məhsulları bazarına aid məqalələrin və məlumatların toplanılması;
- qiymət və çeşid məlumatlarının bilavasitə satış nöqtələrindən toplanılması;
- istehlakçılar ilə sorğuların keçirilməsi;
- beynəlxalq təcrübənin öyrənilməsi;
- bazarda təmsil olunmuş iştirakçılar ilə müsahibələr;
- əldə olunmuş ilkin məlumatların sistemləşdirilməsi və təhlili.



**Qeydlər:**

Hesabat cari və potensial əməliyyatlar üzrə rəy, Sifarişçi və Potensial İnvestor gələcək uğuru və ya səmərəliliyi üzrə rəy, eləcə də investisiya məsləhətləri olaraq qəbul edilməməlidir. Bu Hesabat yalnız müqaviləyə şərtləri və tələblərinə uyğun olaraq istifadə edilə bilər.

# 3.0. Bazarın mövcud durumu

## 3.1. Rəsmi statistika




Qrafik 1. Pomidor İdxalı və İstehsalı (illər üzrə, min tonla)
11 986
471 612
3 763
500 686
3 893
481 395
3 283
515 160
21 021
502 769
6 839
624 198
4 858
609 179
3 862
697 817
2012
2013
2014
2015
2016
2017
2018
2019
İstehsal
İdxal

# Qrafik 1 üzrə nəticələr

- 2012-2019 ci illər nisbətində pomidor istehsalı 226 205 min ton artmışdır
- 8 il ərzində (2012-2019) ortalama illik istehsal həcmi 550 352 min ton təşkil etmişdir
- 2012-2019 illər nisbətində pomidor idxalının həcmi 8124 min ton azaldılmışdır

- 2012-2019 illərdə idxalın ortalama illik həcmi 7438 min ton təşkil etmişdir. Bu rəqəmin daha aşağı olmasına 2016-cı ilin idxalı (21021 min ton) mane olur. 2016-ci ildə Rusiya-Türkiyə münasibətlərində gərginlik və tətbiq olunmuş sanksiyalar Azərbaycandan Rusiyaya ixraçın artmasına və Türkiyədən idxalın yüksəlməsinə səbəb olmuşdur.
- 2017-2019-cu illərdə idxal səviyyələrində mühüm (təqribən 200%) azalma müşahidə olunur.





Qrafik 2. Açıq torpaq və istixanalarda istehsal olunan pomidorların həcmi (min ton)
Açıq torpaqda
İstixanalarda
600,0
500,0
400,0
300,0
200,0
100,0
0,0
440,8
30,8
466,4
34,3
450,7
30,7
481,0
34,2
426,6
76,1
321,2
303,0
327,9
281,3
363,9
333,9
2012
2013
2014
2015
2016
2017
2018
2019

# Qrafik 2 üzrə nəticələr

- 2012-2019 ci illər nisbətində açıq torpaq pomidor istehsalında 18% azalma muşahidə olunur

- 2012-ci il ərzində açıq torpaq və istixana istehsalında kı fərq 93% təşkil etdiyi halda, 2019-cü ildə bu fərq 8% təşkil etmişdir

- 2012-2019 ci illər nisbətində istixanaların istehsalı təqribən 10.8 dəfə artmışdır

- 2012-2015- ci illər üzrə istixana istehsalı stabil səviyyələrdə qalaraq 2016-ci il ərzində 222% artım nümayış etdirmişdir. Bunun əsas səbəbi Rusiya-Türkiyə münasibətlərində gərginlik, pomidor idxalına Rusiya tərəfindən tətbiq olunmuş sanksiyalar əsas səbəb olduğu ehtimal olunur.



# Qrafik 2 üzrə nəticələr (davamı)



- 2017-2019-cu illər ərzində istixanalarda ortalama illik istehsal həcmi 306 min ton təşkil etmişdir.
- 2017-2019-cü illər ərzində acıq torparqda ortalama illik istehsal həcmi 338 min ton təşkil etmişdir.

Yekun nəticə: istixana və açıq torpaq pomidor istehsalı həcminin fərqi yüksək sürətlə azaldılır. Bu, öz növbəsində, pomidor istehsalının fəsillilik amilindən azad olunmasını əks etdirir.


Qrafik 3. Pomidor ehtiyatlarının İlin əvvəlinə qalıq balansı (illər üzrə min tonla)
120 000
100 000
80 000
60 000
40 000
20 000
0
73 574
74 661
77 601
75 427
79 579
80 851
95 393
95 064
2012
2013
2014
2015
2016
2017
2018
2019



Qrafik 4. Ehtiyatların (qalıq+idxal+İstehsal) cəmi (illər üzrə, min tonla)
800 000
700 000
600 000
500 000
400 000
300 000
200 000
100 000
0
557 172
579 110
562 889
593 870
603 369
711 888
614037
701 679
2012
2013
2014
2015
2016
2017
2018
2019

# Qrafik 3 və 4 üzrə nəticələr

- 2012-2019 ci illər nisbətində pomidor ehtiyatlarının İlin əvvəlinə qalıq balansında 21490 min ton yüksəliş müşahidə olunur.

- Lakin, 2012-ci və 2019-cu illərin istehsal həcminin müqayisəsi 226 205 min ton artım nümayiş etdirir.

- Statistik məlumatların bu müqayisəvi göstəriciləri yüksək istehlak və artırılmış ixrac həcmi ilə izah olunur.





Qrafik 5. Ümumi istehsal və konservləşdirmə göstəriciləri (min ton)
Konservləşdirilmiş tərəfəz, meyvə və giləmeyvələrin istehsalı
Tərəvəz, meyvə və giləmeyvələrin ümumi istehsalı
2019
191,5
2814,4
2018
164,7
2532,7
2017
158,9
2360,4
2016
156,5
2153,4
2015
147,9
2163,7
0
500
1000
1500
2000
2500
3000

# Qrafik 5 üzrə nəticələr

- 2015-2019 ci illər ərzində (5 il) konservləşdirilmiş meyvə və tərəvəzlərin istehsalı illik ortalama 163.9 min ton təşkil edib.
- 2015- ci il nisbətində 2019-cu ilin konservləşdirilmiş meyvə və tərəvəz istehsalı 23% artım nümayiş edib və ya beş il ərzində ortalama illik artım 4,6% olub.
- 5 il ərzində, ümumi istehsal olunmuş meyvə-tərəvəzin həcminin konservləşdirmə yolu ilə emalının faizi aşağıdakı səviyyələrdə olub: 2015- 6,82%, 2016- 7,26%, 2017- 6,73 %, 2018-6,5% , 2019-6,8% təşkil edir.
- Beləliklə, ümumi istehsal və konservləşdirilmiş məhsul arasındakı faiz fərqləri dərəcələri stabil olaraq qalır və bunun bir sıra təsdiqlənmiş izahatı var:  1) təzə meyvə-tərəvəzlərin qiymətlərinin kifayət qədər yüksək olması və konservləşdirilməyə böyük maraqın olmaması; 2) bir çox geniş istehsal olan tərəvəzlərin (məsələn, soğanın) konservləşdirilməsi üçün istifadə olunmaması; 3) istehlak bazarının həcmi və məhdud ixracıyyat imkanları.





Qrafik 6. Meyvə və Tərəvəz Konservlərinin Ehtiyatları (ton)
2019
227 252
23 930
157 846
45 476
2018
226 270
21 305
136 275
68 690
2017
237 377
19 022
160 771
57 584
2016
198 996
16 630
140 549
41 817
2015
198 815
22 203
134 765
41 847
0
50 000
100 000
150 000
200 000
250 000
Ehtiyatların cəmi
İdxal
İstehsal
İlin əvvəlinə qalıq

# Qrafik 6 üzrə nəticələr

- 2015 il nisbətində 2019-cu il ərzində konservləşdirilmiş məhsulların cəmi illik ehtiyatları 13% artım nümayiş etdirib. 5 il ərzində konservləşdirilmiş meyvə-tərəvəz məhsullarının ehtiyatlarının həcminin artımı illik ortalama 5 667 ton təşkil edib.

- 2015-2019 illər ərzində konservləşdirilmiş meyvə-tərəvəz məhsullarının ümumi idxalı 103 min 90  ton təşkil edib və ya illik ortalama 20 618 ton olub. 2017-2019 illərində illik idxal artımı 2000-2500 ton ətrafında qərarlaşıb.

Yekun nəticə: konservləşdirilmiş meyvə-tərəvəz məhsulların idxalı həcminin artması istehlakçılar tərəfindən bu növ məhsullara maraqın artmasına işarədir və pomidor emalı və konservləşdirilməsi üçün dəstək amili kimi qiymətləndirilə bilər.



## Qrafik 7a. Pomidor məhsullarının istehsal və dövriyyəsində İtkilərin həcmi (ton)




2018-ci il ərzində
ümumi istehsal və itkilər (ton)
40 437
609 179
İstehsal
İtkilər


2019- ci il ərzində
ümumi istehsal və itkilər (ton)
45 414
697 817
İstehsal
İtkilər

# Qrafik 7 üzrə nəticələr

- Pomidor istehsalın və dövriyyəsində itkilərin artımı 2012-2019 illər nisbətində 13 655 ton və ya 8 il ərzində illik ortalama 1 706 ton təşkil edib. Əsas səbəb: istehsalatın artımı.

- 2018-ci il ərzində ümumi pomidor istehsalı 609 179 ton təşkil etdiyi halda itkilərin həcmi 40 437 ton və ya ümumi istehsalın 6,63% təşkil edib. 2019-cu il üçün bu rəqəmlər 697817 ton (istehsal) və 45 414 ton (itkilər), və ya 6.5 % səviyyəsində qərarlaşıb. Belıliklə, il ərzində itkilərin artımı 5000 ton təşkil edib.

Yekun nəticə: pomidor emalı sənayesinin təkmilləşdirilməsi ümumi itkilərin azaldılması üçün imkanlar yarada bilər və bu daha bir dəstək amili kimi qiymətləndirilməlidir.



Qrafik 8A. 2018-ci il Ərzində Pomidor İxracının Ümumi Tərəvəz İxracıyyatında Payı
(min tonla)




Qrafik 8b. 2019-ci il Ərzində Pomidor İxracının Ümumi Tərəvəz İxracıyyatında Payı
(min tonla)



# Qrafik 8 üzrə nəticələr

2018-ci il ərzində pomidor ixracının həcmi bütün digər tərəvəzlərin ixraciyyat həcmini 275% üstələyib

2019-cu ildə pomidor ixracıyyatı digər tərəvəz ixraçıyatından 366% daha yüksək olub.

Beləliklə, pomidor istehsalı qeyri-neft sənayesində ixrac və valyuta əldə olunması üçün mühüm sektordur və daimi artmaqdadır.





Qrafik 9. Pomidor İstehlakı
emal olunmuş və emal edilmədən (ton)
Ərzaq məhsullarının istehsalı üçün
Emal edilmədən ərzaq məhsulu kimi istifadə
500 000
450 000
400 000
350 000
300 000
250 000
200 000
150 000
100 000
50 000
0
404 570
416 706
388 928
398 383
369 903
406 182
382 721
437 986
10 170
5 405
10 745
16 806
16 877
15 607
18 621
31 408
2012
2013
2014
2015
2016
2017
2018
2019


Qrafik 10. Adambaşına pomidor istehlakı, illik kiloqramla
45,0
44,0
43,0
42,0
41,0
40,0
39,0
38,0
37,0
36,0
35,0
41,8
38,4
41,7
39,0
44,2
2015
2016
2017
2018
2019


Qrafik 11. Meyvə-tərəvəz konservləri və şirələrinin adambaşılna istehlakı, illik kiloqramla
2019
17,0
2,2
2018
17,1
1,9
2017
16,1
1,9
2016
13,7
1,9
2015
15,8
2,2
0,0
2,0
4,0
6,0
8,0
10,0
12,0
14,0
16,0
18,0
Meyvə və tərəvəz konservləri
Meyvə və tərəvəz şirələri

# Qrafik 9, 10 və 11 üzrə nəticələr

2012-2019 cu illər nisbətində emal edilmədən istifadə olunan pomidorların istehlakında  32400 ton və ya 8.1% artım müşahidə olunub

Eyni dövr üçün ərzaq məhsulların istehsalı üçün istifadə olunan pomidorların həcmi 10 170 tondan 31408 tona kimi yüksəlib, və ya 300%-dən artıq artım nümayiş etdirib.

İllik adambaşına pomidor istehlakı ümumilikdə stabil trend nümayiş etdirim və 2015-2019 illər ərzində ortalama illik 41.2 kg. təşkil edib.



Eyni dövr üçün konservləşdirilmiş meyvə-tərəvəz məhsullarının adambaşına illik istehsalı ortalama 15.94 kg. səviyyəsində qərarlaşıb.

## Qrafik 12. Topdansatış ticarət dövriyyəsinin strukturu (min manatla)




| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|
| Ümumi Meyvə-Tərəvəz | 1 463 067,4 | 2 503 457,2 | 2 686 281,0 | 2 757 443,8 | 2 850 795,9 | 3 054 449,9 | 3 104 261,1 | 2 726 649,5 |
| Təzə meyvə və tərəvəz | 1 354 782,9 | 2 383 477,3 | 2 545 381,4 | 2 616 416,5 | 2 657 150,7 | 2 845 786,0 | 2 910 859,6 | 2 558 516,3 |
| Emal edilmiş meyvə və tərəvəz | 108 284,5 | 119 979,9 | 140 899,6 | 141 027,3 | 193 645,2 | 208 663,9 | 193 401,5 | 168 133,2 |



Qrafik 13. Meyvə və Tərəvəz Konservlərinin İstifadələri (ton)
2019
227 252
45 760
5 685
7 261
168 546
2018
226 270
45 476
5 660
6 899
168 235
2017
237 377
68 690
5 937
6 072
156 678
2016
198 996
57 584
3 676
5 818
131 918
2015
198 815
41 817
3 217
3 072
150 709
0
50 000
100 000
150 000
200 000
250 000
İstifadələrin cəmi
İlin sonuna qalıq
İtkilər
İxrac
Ərzaq məhsulu kimi istifadə edilmişdir

# Qrafik 12 və 13 üzrə nəticələr

2012-2019 cu illər nisbətində təzə meyvə-tərəvəz məhsullarının satış dövriyyəsi təqribən 200% yüksəldiyi halda, emal edilmiş məhsullarda bu rəqəm cəmi 60% olmuşdur.

Meyvə-tərəvəz konservlərinin ixracı stabil rəqəmlər nümayiş edib və 2015-2019 illər ərzində ortalama illik ixrac 155 217 ton təşkil edib.

Konservləşdirilmiş meyvə-tərəvəzlərin itkilərində 2015-2016 ci illərdə 3 600-3 700 ton arasında itki qeydə alınmışdırsa, 2017-2019 illər ərzində bu rəqəm 5600-5700 ton arasında qərarlaşıb. Beləlikə, itkilərin artımı son 3 il ərzində illik 2000 ton təşkil edib.



# 3.2. Bazarın çeşid və qiymət təklifləri

Araşdırma zamanı bir sıra marketlərdə pomidordan istehsal olunmuş konserv məhsullarının monitorinqi aparılmış, çeşid və qiymət məlumatları toplanılmışdır.

Monitoring, Bravo (2 nöqtə), Araz (2 nöqtə), Bolmart (1 nögtə), Bazarstore (2 nöqtə) üzərindən aparılmışdır.

Bütün monitorinq keçirilmiş marketlərdə müəyyən olunmuş pomidor konservləri üzrə çeşid məlumatları aşağıdakı kimidir:

Ümumi çeşid sayı (konservləşdirilmiş məhsullar, şirələr xaric)- 62 məhsul

- Azərsun Holdinq Məhsulları- 27 məhsul
- Gilan Holdinq- 9 məhsul
- Abad brendi altında (fərdi sahibkar, micro müəssisə)- 1 məhsul
- Xaricdən İdxal olunan məhsullar- 25 məhsul



# 3.2. Bazarın çeşid və qiymət təklifləri- Azərsun Holdinq

Azərsun tərəfindən istehsal olunan və market rəflərində təmsil olunmuş 27 məhsulun pay bölqüsü aşağıdakı kimidir:

- Tomat pastaları (müxtəlif qablaşdırma və çəkidə, Blendo, Bizim Tarla, Super Sun, Final, Gülüm brendləri altında)- 13 məhsul
- Ketçuplar (müxtəlif qablaşdırma, çəkidə və istehsal formatında, Bizim Süfrə və Chokh brendləri altında)- 8 məhsul
- Pomidor Turşusu (Gülüm və Bizim Tarla brendləri altında)- 2 məhsul
- Pomidor sousu (Bizim Tarla və Bizim Süfrə brendləri altında)- 2 məhsul
- Soyulmuş pomidor (Bizim Tarla brendi altında)- 1 məhsul
- Pomidor püresi (Blendo brendi altında)- 1 məhsul




Bütün çeşid üzrə məlumatlar (qablaşdırma, çəki və qiymət) Əlavə 1-də təqdim olunub)

# 3.2. Bazarın çeşid və qiymət təklifləri- Gilan Holdinq

Gilan Holdinq-ə məxsus Bağdan brendi 8 məhsul ilə təmsil olunub, o cümlədən:




- Tomat pastaları (müxtəlif çəkidə)- 4 məhsul
- Pomidor Turşusu- 1 məhsul
- Pomidor sousu (acılı sous)- 1 məhsul
- Soyulmuş pomidor- 2 məhsul

Bütün çeşid üzrə məlumatlar (qablaşdırma, çəki və qiymət) Əlavə 1-də təqdim olunub)

# 3.2. Bazarın çeşid və qiymət təklifləri- ABAD

Ailə Biznesinə Asan Dəstək (ABAD) publik hüquqi şəxs dekorativ-tətbiqi xalq sənətkarlığı və qida məhsullarının istehsalı sahəsində fəaliyyət göstərən ailə bizneslərinə dəstək layihələri həyata keçirir.



Hal-hazırda ABAD-cılar tərəfindən pomidor emalı ilə əlaqəli iki məhsul istehsal olunur:

ABADçı: Orxan Məmmədli | Masallı r-nu. Badımçan kürüsü və müxtəlif növ tərəvəz salatları




ABADçı: Hüseynağa Nəcəfov | Masallı r-nu | Çeri və bolqar pomidorlarının turşusu

İstehsal həcmi azdır (illik 10-12 ton)

# 3.2. Bazarın çeşid və qiymət təklifləri- İdxal Olunmuş Məhsullar

•Ümumilikdə 25 məhsul ilə təmsil olunmuş idxal çeşidi aşağıdakı brendlər altında marketlərdə təklif olunurlar:

•Heinz (ketçuplar)
•Maxeev (ketçuplar)
•Sloboda (ketçuplar)
•City Farm (tomat pastası)
•Calve (ketçup)

•Coppola (soyulmuş pomidor)
•Beltrad (tomat pastası)
•Barilla (tomat sousu)
•İdeal Product (ketçup)
•İdeal (ketçup)

•Pinar (ketçup)
•Kubanskaya Marka (ketcup və pastalar)




Bütün çeşid üzrə məlumatlar (çəki və qiymət) Əlavə 1-də təqdim olunub)

## 3.2. Bazarın çeşid və qiymət təklifləri araşdırılması- qeydlər və nəticələr

- Hesabatda yalnız pomidorlardan hazırlanmış məhsullar araşdırılıb və tərkibində pomidor olan lakin məhsulun əsas hissəsini təşkil etməyən çeşidlər (misal üçün, badımcan kürüsü, manqal salatı və ya digər) təqdim olunmayıb.
- Şirə istehsalı çeşidində pomidor şirəsi bir pozisiya olduğu üçün hesabatda nəzərə alınmayıb.
- Monitorinq zamanı qeydə alınmış 62 məhsulun 41 məhsulu yerli istehsal, 21 çeşid idxal olmuşdur. Yerli məhsulların 27 çeşidi Azersun Holdinq məhsullarıdır
- Ümumi (62) sayın 50 məhsulu ketcup və pastalar və qalıq digər məhsullardan ibarətdir.

# 3.3. İstehlakçıların sorğusu- sorğulananların tərkibi və suallar

- ✓ Araşdırma zamanı 100 nəfər respondentin rəy və fikirləri öyrənilmişdir
- ✓ Sorğulanların 70 nəfəri qadın 30 nəfəri kişidir
- ✓ Bundan, qadınların 20 nəfəri 25-35 yaş, 20 nəfəri 36-50 yaş, digərləri 51-70 yaşlı, kişilərin 10 nəfəri 25-25 yaş, 10 nəfəri 26-45 yaş, digərləri 46+ yaşlı olub
- ✓ Qadınların 28 nəfəri evdar (təqaüdcü qadınlar daxil), 42 nəfəri işləyən qadındır. Kişilərin 21 nəfəri işləyən, digərləri təqaüdçü və işləməyənlərdir

- Sorğunun sualları

  1.Marketlərdəki pomidor emalı məhsullarından istifadə edirsinizmi?

  2.Onlar hansılardır?

  3.Özünüz hər hansı bir məhsul konservləşdirirsinizmi?

  4.Yerli və ya idxal olunmuş məhsullara üstünlük verirsiniz?



# 3.3. İstehlakçıların sorğusu- cavabların nəticələri

1. Marketlərdəki pomidor emalı məhsullarından istifadə edirsinizmi?

   CAVABLAR:

   Bəli mütəmadi edirik- 84 respondent (62 nəfəri qadın 22 nəfəri kişi)

   Bəli, lakin çox az, ev məhsullarına üstünlük veririk- 16 nəfər (8 qadın və 8 kişi)

2. Onlar hansılardır?

   CAVABLAR:

   Ketçup- 76 nəfər (58 qadın və 18 kişi)

   Tomat pastası- 25 nəfər (22 qadın və 3 kişi)

   Pomidor və pomidor tərkibli assorti turşular- 68 nəfər (39 qadın və 29 kişi)

   Souslar- 17 nəfər (14 qadın və 3 kişi)



# 3.3. İstehlakçıların sorğusu- cavabların nəticələri




3. Özünüz hər hansı bir məhsul konservləşdirirsinizmi? Hansıları?

CAVABLAR:

Bəli edirik, soyulmuş pomidor və turşular- 67 nəfər (46 qadın, 21 kişi)

Etmirik, lakin evdə hazırlanmış məhsulları bazardan və sifarişlə alırıq- 33 nəfər (24 qadın, 9 kişi)

4. Yerli və ya idxal olunmuş məhsullara üstünlük verirsiniz?

CAVABLAR:

Ketçup üzrə- 74 nəfər xarici, 26 nəfər yerli istehsala üstünlük verir

Tomat pastası- 54 nəfər xarici, 46 nəfər yerli istehsalın xeyrinə səs verir

Pomidor və pomidor tərkibli assorti turşular- 21 nəfər xarici, 79 nəfər yerli istehsalı seçim edir

Souslar- 42 nəfər xarici 68 nəfər yerli istehsal məhsullarına üz tutur



# 3.4. Mövcud istehsalat

Kənd Təsərrüfatı Nazirliyindən əldə olunmuş məlumata görə hal-hazırda ölkədə 47 konserv zavodu fəaliyyətdədir. Onların yarısı mövsumlü işləyir və il boyu fəaliyyətdə deyil. 2020-ci il ərzində zavodlar tərəfindən ümumilikdə 42 million şərti şüşə (bir şərti şüşə qabın tutumu 400 qr. olmaqla) istehsal edilib. Bütün müəssisələr tam gücü ilə istifadə olunduğu təqdirdə istehsalat həcmini 500 mln. şərti şüşə qab səviyyəsinə çatdırmaq olar.

Tərəvəz, o cümlədən, pomidor emalı ilə məşqul olan müəssisələr barədə qısa məlumat növbəti səhifələrdə əks etdirilib.



# 3.4. Mövcud istehsalat- Gilan Quba Konserv Zavodu

Azərbaycanın şimalında 10.4 hektarlıq ərazidə yerləşən “ Gilan Quba konserv zavodu ” MMC 21.01.2013-cü ildən fəaliyyətə başlamışdır.

Zavod tərəvəz konservləri və qəlyanaltıları, meyvə və giləmeyvə turşuları, mürəbbələr və qatılaşdırılmış alma şirəsi istehsal edir. Gündəlik tərəvəz qəbul gücü 100 tondan artıqdır.

Məhsullar “ Bağdan ” əmtəə nişanı adı ilə daxili bazarlarla yanaşı həm də xarici ölkələrə ixrac edilir.Fəaliyyət dövrü ərzində daxili və xarici bazarda məhsullara olan tələbat iki dəfədən çox artmışdır. Konserv məhsullarının istehsalında istifadə olunan xammal təbii və ekoloji təmiz şəraitdə zavodun öz meyvə bağları və əkin sahələrində yetişdirilir.



# 3.4. Mövcud istehsalat- Gilan Lənkəran Konserv Zavodu

Əsası 2010-cu ildə qoyulan Gilan Lənkəran Konserv Zavodu MMC Azərbaycanın cənubunda 2 hektarlıq ərazidə yerləşir.

Zavod Padovan (İtaliya) şirkətinin müasir texnologiyaları ilə təchiz edilib və saatda 5 000 litr istehsal gücünə malik 2 xətti var. Həmçinin müəssisədə aseptik dolumlu tomat pastası istehsal edən xətt fəaliyyət göstərir.



Gilan Lənkəran Konserv Zavodunun məhsulları beynəlxalq sərgilərdə qızıl medal və diplomlarla təltif edilmişlər. Daxili bazarla yanaşı məhsullar həm də MDB, Avropa, ABŞ, Asiya, Avstraliya və Yeni Zelandiyaya ixrac edilir.

# 3.4. Mövcud istehsalat- Gəbələ Konserv Zavodu

13 hektar ərazidə yerləşən, Padovan (İtaliya) və Tetra Pak (İsveç) Avropa texnologiyaları ilə təchiz edilmiş Gəbələ Konserv Zavodunun illik emal gücü 300.000 ton təşkil edir. Müəssisənin illik meyvə şirəsi və nektarı istehsalı gücü 210.000 tona bərabərdir. Zavodda 7 istehsal xətti fəaliyyət göstərir. Onlardan 2 istehsal xətti şüşə qablaşdırma, 5 xətt isə Tetra Pak qablaşdırma istehsalı üçün istifadə olunur.



Hal-hazırda Gəbələ Konserv Zavodunda 100-ə yaxın adda məhsul istehsal edilir. İstehsal prosesi bütün ekoloji, sanitar-gigiyenik və təhlükəsizlik normalarına uyğun aparılır və beynəlxaq standartlara cavab verir.

Həmçinin müəssisədə orqanik nar konsentratı və nar şirəsi istehsal edilir. Avropa və Amerika bazarlarında satışı üçün ECOCERT tərəfindən sertifikatlaşdırılır.

# 3.4. Mövcud istehsalat- Azərsun Holdinq Konserva Qrupu

“Azərsun Holdinq” Azərbaycanın müxtəlif bölgələrdə ümumilikdə illik istehsal gücü 300 mln şərti banka vahidi olan 4 konserv emal zavoduna sahibdir.

Bu zavodlar Xaçmaz, Biləsuvar, Lənkəran və Qazax rayonlarında yerləşir. Qazax Konserv Zavodu dondurulmuş meyvə, giləmeyvə və fast food şəbəkələri üçün kartof yarımməmulatları istehsal edir və bu səbəbdən hesabatda əks olunmayıb.

Konserv zavodlarının xammalı şirkətlər qrupunun kənd təsərrüfatı kompleksindən və regionlardakı 3000-dən artıq fermerdən məhsul qəbulu hesabına təmin olunur.

AZERSUN

# 3.4. Mövcud istehsalat- Qafqaz Konserv Zavodu

Azərsun şirkətlər qrupunun ilk konserv zavodu – Qafqaz Konserv Zavodu Azərbaycanın şimal hissəsində, Xaçmaz şəhərində 2003-cü ildən fəaliyyətə başlamışdır.




Zavodun illik istehsal gücü 30 000 tondur. Burada ət və müxtəlif hazır yemək konservləri, mürəbbə, cem və pürelər, kompot, turşu və tomat pastası istehsal edilir.

# 3.4. Mövcud istehsalat- Biləsuvar Konserv Zavodu

Azərsun Kənd Təsərrüfatı kompleksinin ərazisində ətrafı əkin tarlaları ilə əhatə olunan Biləsuvar Konserv Zavodu 2010-cu ildə fəaliyyətə başlamışdır.




Burada becərilən müxtəlif kənd təsərrüfatı məhsulları toplanaraq, heç bir yol qət etmədən və zaman itirmədən birbaşa emala göndərilir.

Zavodda yaşıl noxud, patisson, kornişon, pomidor konservləri, ketçup, eyni zamanda nar şirəsi və narşərab istehsal olunur. Müəssisənin illik istehsal gücü 50 000 tondur. Zavodun xammalı 100% şirkətlər qrupunun tərkibində fəaliyyət göstərən kənd təsərrüfatı kompleksi tərəfindən təmin olunur.

# 3.4. Mövcud istehsalat- Lənkəran Konserv Zavodu

Lənkəran Konserv Zavodu Azərbaycanın cənub bölgəsində, subtropik iqlimi və zəngin bitkiçilik-meyvəçilik çeşidləri ilə tanınan Lənkəran şəhərində fəaliyyət göstərir.

İstehsal bölgə fermerlərindən tədarük edilən meyvə və tərəvəzlərin emalı, xüsusilə közlənmiş tərəvəz konservləri, kompot və turşu istehsalı üzrə ixtisaslaşıb.

Zavodun illik istehsal gücü 12 000 tondur.



# 3.4. Mövcud istehsalat- Nəticələr

Beləliklə, Azərbaycanın meyvə-tərəvəz emalı zavodlarının illik istehsal güçü faktiki istehsalı təqribən 10 dəfə üstələyir.

Böyük istehsal müəssisələrinin məhsulları daxili bazarla yanaşı digər ölkələrə ixrac edilir.

Hesabatda təqdim olunmuş və böyük holdinqlərin tərkibində olan konserv zavodları müvafiq marketinq və satış proqramlarının icra edilməsi üçün kifayət qədər maliyyə və təcrübə resurslarına malikdirlər (misal üçün, Azərsun şirkəti Azərçay brendinin Rusia və MDB-də tanınması üçün geniş miqyaslı müvəffəqiyyətli reklam kampaniyaları keçirir) və konserv müəssisələrinin tam güclə işləməməsi və yaxud istehsal güclərinin artırılmaması müəyyən dərəcədə bazarın satış məhdudiyyətlərindən xəbər verir, və bu da, öz növbəsində meyvə-tərəvəz, o cümlədən pomidor emalı müəssisələrinin yaradılmasına sərmayə qoyuluşunun səmərəliliyini şübhə altına qoyur.



# 4.0. Pomidor emalına dəstək amillər

Dəstək amilləri olaraq əsasən aşağıdakı faktorların nəzərdən keçirilməsi təklif olunur:

1. Pomidor istehsalı və dövriyyəsində yüksək itkilər
2. Pomidor emal məhsullarının daha uzun saxlama müddəti
3. İxrac risklərinin azaldılması
4. İdxalın əvəz edilməsi



Hər dörd sadalanan amil bir birinə bağlıdır və daha ətraflı bu hesabatın növbəti səhifələrində təhlil olunmuşdur.

# 4.0. Pomidor emalına dəstək amillər- yüksək itkilər

Statistik məlumatların təhlili zamanı itkilər barədə məlumatlar təqdim olunmuşdur və bildirilmişdir ki ölkədə pomidor istehsalı artım templəri müvafiq dərəcədə itkilərin artımına səbəb olacaqdır.



Bundan əlavə, Kənd Təsərrüfatı Nazirliyinin statistik təhlil nəticələrinə görə, konserv məhsulları istehsalının daha səmərəli təşkil olunduğu təqdirdə meyvə-tərəvəz itkilərinin 30-50 % azaldılması mümkündür.

Bu amili dəstəkləyən daha bir faktor odur ki, əsas pomidor emalı məhsulları, misal üçün ketçuplar, tomat pastaları, souslar bazarda təzə tərəvəz kimi satışa yararlı məhsuldan deyil, kalibr və əmtəə görünüşü göstəriciləri zəif olan pomidorlardan istifadə olunmaqla istehsal olunur və ya oluna bilər

# 4.0. Pomidor emalına dəstək amillər- saxlama müddəti

Təzə pomidorların saxlama müddəti 6-7 gün təşkil edir. Bu səbəbdən onların istehlak bazarına çatdirilmasında ləngimələr və yaxud digər faktorlar (misal üçün, alıçılıq qabiliyyəti və istehlakın müvəqqəti azalması, gömrük, sanitar nəzarət və daşınma zamanı ləngimələr) bir çox hallarda böyük itkilərlə nəticələnir.



Konservləşdirilmiş məhsulların uzun (ən azından 12 ay) saxlama müddətini nəzərə alsaq, həmin itkilərin qarşısı alınmış olur və daha rahat və uzunmüddətli satış imkanlarını təqdim edir.

# 4.0. Pomidor emalına dəstək amillər- İxrac risklərinin azaldılması

Azərbaycanda istehsal olan pomidorlar əsasən Rusiya Federasiyasına təchiz olunur. Məhsullarımızın satış bazarı kifayət qədər böyükdür və əlverişli qiymətlərlə fərqlənir. Lakin, bir çox hallarda Rusiya dövlətinin iqtisadiyyat sahəsində etdiyi addımlar siyasət məsələlərindən asılı olur.

Belə ki Rusiya-Gürcüstan münasibətlərində gərginlik, Borjomi mineral sularının və Gürcü şərəblarının Rusiyaya idxalına qadağalarla nəticələnmişdir.

2015-ci ilin noyabr ayında baş vermiş təyyarə insidenti və nəticə olaraq dondurulmuş Rusiya-Türkiyə münasibətləri 2015-2017-ci illər ərzində Türkiyədən Rusiyaya pomidor ixracını tamamilə dayandırmışdır.

Belə olan halda Azərbaycandan Rusiyaya ixrac edilən məhsullar hər hansı bir mərhələdə Rusiya təzyiqinə məruz qala bilər. Bu, ilk öncə, meyvə-tərəvəz ixracına aiddir və məhsulların konservləşdirməsi ixrac manevrlarının keçirilməsi üçün vacib zəmin yaratmış olar.

# 4.0. Pomidor emalına dəstək amillər- idxalın əvəz edilməsi

Bu hesabatın statistik təhlil hissəsində pomidor emal məhsullarının, ilk öncə ketçupların və tomat pastalarının idxalı ilə bağlı məlumatlar verilmişdir.

2018-ci və 2019-cu illər ərzində konservləşdirilmiş meyvə-tərəvəz məhsullarının ümumu idxalı müvafiq olaraq 21 305 ton və 23 930 ton olmuşdur və bu rəqəm hələ də artmaqdadır.

Bunu və ölkənin mövcud xammal istehsalı, itkilərin həçmini, emal güclərini nəzərə alsaq idxalın ən azından qismən əvəzolunması və ya beynəlxalq brendlərin istehsalının lokallaşdırılması üçün müvafiq şəraitin mövcudluğu qənaətinə gəlmiş olarıq.



# 5.0. Pomidor emalı təşəbbüsünün SWOT təhlili

## STRENGTHS (GÜCLÜ TƏRƏFLƏR)

- Yüksək keyfiyyətli xammalın böyük istehsal həcmi
- Azərbaycanda istehsal olunan pomidorların brend kimi tanınması
- MDB ölkələrində kifayət qədər inkişaf etdirilmiş satış kanalları
- Bir neçə əsaslandırılmış dəstək amilinin mövcudluğu (Bölmə 4.0)
- Xammal istehsalının daimi artımı
- Azərbaycan məhsullarının dünya bazarlarına çıxış imkanlarının genişləndirilməsi



# 5.0. Pomidor emalı təşəbbüsünün SWOT təhlili

## WEAKNESSES (ZƏİF TƏRƏFLƏR)

- Rusiya və digər MDB ölkələrinə ixrac olunan xam məhsulun yüksək qiyməti və rentabelliyi;
- Geniş maliyyə və təşkilatı imkanlara malik olan şirkətlərin (Azersun, Gilan və s.) bu istiqamətdə böyük nailiyyət əldə etməmələri və istehsal gücündən tam istifadə üçün şərait yaratmamaları;
- 500 mln. şərti şüşə qab istehsal gücünə malik olan sənayenin bu gücün cəmi 9% istifadə etməsi;
- Pomidor emalı məhsullarının idxalının ildən ilə artması



# 5.0. Pomidor emalı təşəbbüsünün SWOT təhlili

## OPPORTUNİTİES (İMKANLAR)

- Konservləşdirilmiş meyvə-tərəvəz idxalının azaldılması;
- Pomidor emalı məhsullarının çeşidinin genişləndirilməsi və ixraciyyat imkanlarının artırılması;
- Pomidor istehsalı və dövriyyəsində itkilərin azaldılması
- Azərbaycan məhsulunun uzaq istiqamətlərə satışı;
- Xammal ixracı yönümlü yanaşmanın məhsul emal edən sənaye modelinə transformasiyası;
- Xüsusi eksklüziv məhsulların istehsalı (ekoloji təmiz, organik, dietik və s.)



# 5.0. Pomidor emalı təşəbbüsünün SWOT təhlili

THREATS (TƏHLÜKƏLƏR)

- İxracıyyatın diversifikasiya edilməməsi nəticəsində müəyyən iri idxalçılardan asılılıq;
- Sanksiya və ya digər məhdudiyyət tətbiq edildikdə böyük həcmdə xammal itkiləri;
- Xammal istehsalı və istehlakının məhdud olması nəticəsində sənayenin artım templərinin düşməsi.
- Sənayenin ümumi sərmayə və texnoloji inkişafdan məhrum edilməsi (emal yönlü layihələr icra edilmədiyi təqdirdə).



# 6.0. Dövlət dəstəyi proqramları

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 yanvar tarixl 17 nömrəli qərarına müvafiq olaraq ölkəyə idxal olunan bir sıra kənd təsərrüfatı və emalı texnikası, o cümlədən qida sənayesində istifadə edilən suyun süzülməsi və ya təmizlənməsi üçün qurğu və avadanlıqlar, butulkaların və ya digər qabların yuyulması və qurudulması üçün avadanlıqlar, ərzaq məhsullarının istehsalında istifadə olunan avadanlıqların hissələri, pnevmatik qaldırıcılar və konveyerlər, meyvə və ya digər kənd təsərrüfatı məhsullarının təmizlənməsi, sortlaşdırılması və ya kalibrlənməsi üçün maşınlar və s. ölkəyə idxal edilərkən idxal rusmuna və əlavə dəyər vergisinə cəlb edilmirlər.



# 6.0. Dövlət dəstəyi proqramları

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA)

Startap şəhadətnaməsinin verilməsi-

şəhadətnaməni alan mikro və kiçik sahibkarlıq subyektləri Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq şəhadətnaməni aldıqları tarixdən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edilir.

Sahibkarlığın İnkişaf Fondu

Güzəştli Kreditləşdirmə-

10 mln. AZN məbləğə kimi, 10 il müddətinə kimi, illik 5%-dək faiz dərəcəsi olan güzəştli kreditlərini əldə etmək imkanı.



# 6.0. Dövlət dəstəyi proqramları

Aqrar Kredit və İnkişaf Agentliyi

Güzəştli kreditləşdirmə

1 000 000 manatədək kənd təsərrüfatı istehsal vasitələrinin alınması üçün kreditlər. 5 ilədək müddətinə verilir.




Azpromo

Satış və marketinq

2003-cü ildə İqtisadiyyat Nazirliyi tərəfindən yaradılan Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) qeyri-neft sektorlarına xarici investisiyaların cəlbi və qeyri-neft məhsullarının ixracının stimullaşdırılması məqsədilə fəaliyyət göstərir.

170 – dən çox ölkə ilə xarici ticarət əlaqələri qurmuş Azpromo, həmçinin Made İn Azerbaijan brendinin operatorudur.

# 7.0. İnkişaf Perspektivləri

Bu hesabatın ön hissələrində qeyd edildiyi kimi, Azərbaycanın mövcud pomidor emal gücünün kifayət qədər ehtiyatları var. Belə olan halda, geniş yayılmış pomidor emal məhsullarının (pastalar, ketçuplar, duzlular, soyulmuş pomidor və sair) istehsalına sərmayə qoyulması nəticəsində əldə olunan məhsullar yüksək rəqabət və risklərlə üzləşə bilər.



Bunu nəzərə alaraq, araşdırma zamanı alternativ və xüsusi pomidor məhsullarının istehsalı və satışı bazarında beynəlxalq təcrübə öyrənilmişdir və aşağıdakı məhsul çeşidlərinə diqqət edilməsi tövsiyə edilir.

# 7.0. İnkişaf Perspektivləri

**Tövsiyə olunan pomidor emal məhsulları:**

- ✓ Pomidor şirəsi sənayesində istifadə olunan konsentratların istehsalı;
- ✓ Organik pomidor məhsullarının istehsalı;
- ✓ Dietik məhsulların istehsalı;
- ✓ Az büdcəli məhsulların istehsalı (büdcə təşkilatları üçün);
- ✓ Pomidor tərkibli salat və digər tərəvəz məhsullarının (kürə, leço, sair) istehsalı
- ✓ Gündə qurudulmuş pomidorların istehsalı (Aralıq dəniz regionunun mətbəxində geniş istifadə olunur)



# 7.0. İnkişaf Perspektivləri

Məhz bu məhsulların tövsiyə olunmasının səbəbi:

- ✓ Bazarda məhdud təklifin olması;
- ✓ Yüksək satış qiyməti;

- ✓ Xüsusi qruplar üçün hədəflənməsi;
- ✓ Böyük ixrac potensialı;

- ✓ Rəqabətin olmaması və ya az olması



# 8.0. Nəticələrin qısa xülasəsi

Azərbaycanda pomidor emalı müəssisələrinin təşkilatı üçün əsas amil-keyfiyyətli xammal istehsalı mövcuddur və artmaqdadır.

Pomidor emalı üçün dəstək olan 4 amil: saxlama müddətinin uzaldılması, itkilərin azaldılması, ixrac risklərinin mövcudluğu, idxalın əvəzedilməsi imkanları

Pomidor emalına sərmayelərin qoyulmasının əleyhinə olan amillər: azad istehsal güclərin mövcudluğu, konservləşdirilmiş məhsulların ixracının artmaması



# ƏLAVƏ 1. Monitorinq: çeşid və qiymətlər

| | | | |
|---|---|---|---|
| **Gülüm (pomidor turşusu)** | **Azersun/yalnız Bazrestore da satılır** | **1.29 azn** | **700 gr** |
| **Bizim Tarla (pomidor turşusu)** | Azersun | 6.20 azn | 2 kg |
| **Bizim tarla (tomat pastası)** | Azersun | 2.94 azn | 720 gr |
| **Gülüm (tomat pastası)** | Azersun/yalnız Bazaresore da satılır | 2.55 azn | 720 gr |
| **Bizim Tarla (pomidor sousu)** | Azersun | 0.58 azn | 350 gr |
| **Heinz (ketçup)** | Petroproduct/Avropa MMC | 4.30 azn | 570 gr |
| **Heinz (ketçup)** | Petroproduct/Avropa MMC | 6.15 azn | 1 kg |
| **Heinz (ketçup)** | Petroproduct/Avropa MMC | 2.55 azn | 350 gr |
| **Maxeev (ketçup)** | AO Essen production AQ/Avrora | 1.45 azn | 350 gr |
| **Maxeev (ketçup)** | AO Essen production AQ/Avrora | 1.99 azn | 500 gr |
| **Sloboda (ketçup)** | OAO EFKO | 1.68 azn | 350 gr |
| **Bizim Süfrə (ketçup)** | Azersun | 1.45 azn | 350 gr |
| **Bizim Süfrə (ketçup)** | Azersun | 1 azn | 200 gr |
| **Bağdan (tomat pastası)** | Gilan | 2.90 azn | 700 gr |
| **Super sun (tomat pastası)** | Azersun | 3.70 azn | 720 gr |

# ƏLAVƏ 1. Monitorinq: çeşid və qiymətlər

| **Final (tomat pastası)** | **Azersun** | **2.80 azn** | **720 gr** |
|---|---|---|---|
| **Final (tomat pastası)** | Azersun | 1.52 azn | 275 gr |
| **Blendo (tomat puresi)** | Azersun | 1.50 azn | 275 gr |
| **City farm (tomat pasta)** | Orya organik yaşam gida tekstil/F/Ş A.K | 13.95 azn | 650 gr |
| **Beltrad (tomat pastası)** | Onic ltd | 2.60 azn | 380 gr |
| **Final (tomat pastası sarımsaqlı)** | Azersun | 3.41 azn | 720 gr |
| **Bağdan (soyulmuş pomidor)** | Gilan | 1.75 azn | 720 gr |
| **Bizim Süfrə (ketçup acılı)** | Azersun | 1.73 azn | 350 gr |
| **Bizim Süfrə (ketçup xardalı)** | Azersun | 1.00 azn | 200 qr |
| **İdeal produkt (tomato ketçup)** | İdeal produkt, Bolqarıstan | 3.03 azn | 900 gr |
| **CHOCH (ketçup acılı)** | Azersun | 2.39 azn | 900 gr |
| **Bizim Süfrə (ketçup klassik)** | Azersun | 2.52 azn | 540 gr |
| **Bizim Tarla (soyulmuş pomidor)** | Azersun | 1.75 azn | 680 gr |
| **Bağdan (tomat pastası)** | Gilan | 2.79 azn | 720 gr |
| **City farm (tomat pastası)** | Orya organik yaşam gida tekstil /F/Ş A.K. | 13 azn | 650 gr |

# ƏLAVƏ 1. Monitorinq: çeşid və qiymətlər

| | | | |
|---|---|---|---|
| **Bizim tarla (acılı tomat pastası)** | **Azersun** | **3.50 azn** | **720 gr** |
| **Bizim tarla (tomat pastası)** | Azersun | 2.94 azn | 720 gr |
| **Bizim tarla (tomat pastası)** | Azersun | 1.55 azn | 275 gr |
| **Super sun (tomat pastası)** | Azersun | 3.52 azn | 720 gr |
| **Super sun (tomat pastası)** | Azersun | 1.85 azn | 275 gr |
| **Barilla (tomat sous)** | Barilla Gand R/Sizen tradimg MMC | 6.99 azn | 400 gr |
| **Bağdan (pomidor marinad)** | Gilan | 1.99 azn | 700 gr |
| **Burcu (ketçup)** | Şam-si İnternational Trading Co MMC | 2.80 azn | 430 gr |
| **İdeal (ketçup)** | İdeal product Bolqarıstan | 2.10 azn | 485 qr |
| **Calve (ketçup)** | Yunilever/Sun food MMC | 4.05 azn | 600 gr |

# ƏLAVƏ 1. Monitorinq: çeşid və qiymətlər

| Pınar (ketçup) | Sam-fi | 3.70 azn | 500 gr |
|---|---|---|---|
| Bizim Süfrə (ketçup) | Azersun | 2.99 azn | 680 gr |
| Calve (Braziliya ketçupu) | Yunilever Rus MMC/ Sun-Food MMC | 1.92 azn | 350 gr |
| Chokh (ketçup) | Azersun | 2.39 azn | 900 gr |
| Barilla (tomat sous) | Barillo G and R | 6.99 azn | 400 gr |
| Bizim süfrə (tomat sousu) | Azersun | 1.42 azn | 310 gr |
| Bağdan (acika sousu) | Gilan | 2.80 azn | 470 gr |
| Blendo (tomat pastası) | Azersun | 5.95 azn | 2100 gr |
| Bağdan (soyulmuş pomidor) | Gilan | 1.85 azn | 680 gr |
| Bizim tarla (soyulmuş pomidor) | Azersun | 1.87 azn | 680 gr |
| Bizim tarla (acılı tomat pastası) | Azersun | 3.58 azn | 720 gr |
| Tomatto (tomat pastası) | Lutsk fudz OSC/Veysəloğlu MMC | 2.98 azn | 720 gr |
| İdeal (tomat pastası) | İdeal product Bolqarıstan | 4.11 azn | 720 gr |
| Bağdan (pasta) | Gilan | 1.79 azn | 360 gr |
| Coppola (soyulmuş pomidor) | İtaliya/Compass İnternational MMC | 2.69 azn | 400 gr |

# ƏLAVƏ 1. Monitorinq: çeşid və qiymətlər

| | | | |
|---|---|---|---|
| **Bağdan (tomat pasta)** | **Gilan** | **2.79 azn** | **720 gr** |
| **Kubanskaya marka** | Afina OOO/Bolluq Ltd MMC | 3.08 azn | 750 gr |
| **Final (tomat pastası)** | Azersun | 2.83 azn | 720 gr |
| **Super Sun (tomat pastası)** | Azersun | 3.52 azn | 720 gr |
| **Bizim tarla (pomidor turşusu)** | Azersun | 1.99 azn | 670 gr |
| **Bağdan (pomidor marinadı)** | Gilan | 1.99 azn | 700 gr |
| **Abad (pomidor turşusu)** | Abad | 2.90 azn | 720 gr |
| **Bizim tarla (qırmızı pomidor turşusu)** | Azersun | 5.94 azn | 2 kg |